Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azərbaycanda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində yeni təmayüllər...

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Hüquq və azadlıqların dövlət tərəfindən etibarlı müdafiəsi hər bir ölkənin demokratik, eyni zamanda dinamik inkişafının əsas yollarından biri hesab edilir. Elə Azərbaycan da inkişafıan bu prizmadan yanaşır, insan hüququ və azadlıqlarının qorunmasını, təminini prioritet hesab edir.**

Bu gün qeyd edilən məqsədlə dövlətin ixtiyarında təkcə pozulmuş hüquq və azadlıqların müdafiəsi və bərpası üçün deyil, həm də bu cür pozuntuların qarşısını almaq üçün effektiv vasitələr kompleksi var. Ölkəmizdə yalnız dövlət orqanının aktı bütün digər aktlara münasibətdə zəruri məcburi qüvvəyə malikdir. Bundan əlavə, hər hansı şəxsin hüquq və azadlıqlarının pozulmasına görə məsuliyyət daşıyan şəxslərin məsuliyyətə cəlb edilməsi üçün dövlətin məcburetmə mexanizmi var. Hüquq və azadlıqların qorunmasının bütün digər yolları dövlət müdafiəsini tamamlayır. Bütün bunalr Azərbaycanda insan hüquq və azadlıqlarının etibarlı qorunmasını təmin edir.

**İnsan hüquqlarının konstitusion təminatı**

Mövcud dünya təcrübəsi göstərir ki, istənilən ölkədə hüquq və azadlıqların qorunmasının effektiv mezxanizmi onun konstitusion əsaslarının yaradılmasıdır. Azərbaycanın Konstitusiya inkişafının hazırkı mərhələsi vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, qorunması sisteminin daim təkmilləşdirilməsi ilə xarakterizə olunur.

Yeni müstəqillik tarixində insan hüquqları məsələsi Azərbaycan ictimai şüurunda daha möhkəm yer tutmağa başlayıb. Bu da təbii olaraq ölkənin ümumi demokratikləşməsi prosesləri ilə bağlıdır. Müasir Azərbaycan humanitar sahədə dünya birliyinin əsas standartlarını qəbul edir, insan hüquqlarına hörmət etmək və qorumaq öhdəliyini üzərinə götürür, bu hüquqların təbii və ayrılmaz olduğunu, insana doğulduğu gündən verildiyini, hər kəsdən əvvəl dövlət üçün məcburi olduğunu qəbul edir. Konstitusiya bu mənada demokratik prinsiplər üzərində qurulmuş Azərbaycan dövlətçiliyi üçün qanuni əsas yaradır, dövlətlə şəxsiyyət arasında münasibətlər sistemini əsaslandırır. O, dövlətin əsas dəyərlərini və onların qorunması qaydasını müəyyənləşdirir. Təqdirəlayiq haldır ki, ölkəmizdə Konstitusiya tənzimləməsinin əhatə dairəsinin genişləndirilməsi bu sahədə bütün mövcud beynəlxalq standartlara cavab verən insan hüquq və azadlıqlarının bütöv bir spektrinin Əsas Qanun çərçivəsində tam, ardıcıl konsolidasiyasına gətirib çıxarır. Amma buna paralel olaraq Azərbaycanda vətəndaşların hüquq və azadlıqları cəmiyyətin inkişafının indiki mərhələsində əldə edilən demokratik məzmuna uyğun olaraq dövlət tərəfindən təminat tələb edir. Bu və ya digər dövlət orqanı tərəfindən onlara təminat verilməsi problemləri həll edilərkən şəxsin və onun hüquqlarının Konstitusiya tərəfindən ali dəyər kimi tanınması, müvafiq beynəlxalq hüquq standartlarının prioritetliyi mütləq nəzərə alınmalıdır. Ötən dövr ərzində ölkəmizdə bu müstəvidə xeyli iş görüklüb. Ayrı-ayrı dövlət qurumları tərəfindən insan hüquqlarının pozulması halalrı əhəmiyyətli dərəcədə azalıb. Ölkəmizdə artıq şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsinə dövlət təminatı əvvəlcədən müəyyən edilir. Bu zaman iqtisadi, sosial və hüquqi xarakterli mürəkkəbliklər belə ən incə detallarına qədər nəzərə alınır. İnsan hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiəsi mexanizminin təkmilləşdirilməsi isə mütəmadi xarakter daşıyır. Ölkəmizdə yanaşma bundan ibarətdir ki, insan hüquqları həm də qlobal dəyərdir. Onlar dünya birliyi tərəfindən hazırlanmış standartlara uyğun olaraq qiymətləndirilməli və mühafizə olunmalıdır. Odur ki, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində daim beynəlxalq hüquqi sənədlər öyrənilir, təhlil edilir, onların tələbləri nəzərə alınır.

**Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələrin fəal iştirakçısıdır**

Şübhəsiz ki, insan hüquqlarının müdafiəsi, müvafiq müqavilələrə riayət olunması ilk növbədə, hər bir ölkənin əldə etdiyi nailiyyətlərdən, milli səviyyədə mövcud olan mexanizmlərdən asılıdır. Mövcud qanunlar, siyasi qərarlar, prosedurlar və mexanizmlər hər bir ölkədə insan hüquqlarının həyata keçirilməsinin açarıdır. Buna görə də insan hüquqlarının Konstitusiya və qanunvericilik sistemlərinin bir hissəsinə çevrilməsi, peşəkar hüquqşünasların insan hüquqları standartlarını praktikada tətbiq edə bilməsi



vacibdir. Azərbaycan bu müstəvidə də zəruri addımlar atır.

Eyni zamanda insan hüquqlarının müdafiəsi sahəsində ölkəmiz öz milli standartlarını da yaradır. Burada nəzərə alınmalıdır ki, milli prosedur qaydaları regional və beynəlxalq standartlara nisbətən daha əlçatandır. Ona görə də dövlətin hüquqlara hörmət etmək, təşviq etmək, qorumaq və yerinə yetirmək vəzifəsi hər şeydən üstündür. Çünki regional və beynəlxalq məhkəmələrin rolu ikinci plandadır, onlar əsasən dövlət tərəfindən məqsədyönlü və ardıcıl olaraq insan hüquqlarını pozduqda işə düşür. Amma regional və ya beynəlxalq ictimaiyyətin narahatlığı, yardımı müəyyən qədər ölkədə hüquqların bərpasına kömək edə bilər. Lakin bu, yalnız orada bütün daxili hüquqi müdafiə vasitələri artıq istifadə edilmiş və tükənmiş olduqda edilir. Azərbaycan bu mexanizmin dünyada tətbiqinin tərəfdarıdır. Müvafiq beynəlxalq müqavilələrə ölkəmiz buna görə tərəfdardır. Çünki bu müqavilələr onu ratifihkasiya etmiş bütün dövlətlər üçün real davranış normalarını müəyyən edir, onların qarşısında vətəndaşlara münasibətdə müəyyən vəzifələr qoyur. Müqavilələr iki növ ola bilər: hüquqi və məcburi olmayan. Çox vaxt "müqavilə", "konvensiya" və ya "pakt" kimi adlandırılan məcburi sənəd dövlətin milli səviyyədə hüquqların həyata keçirilməsinə dair öhdəliyidir. Hər bir ayrı-ayrı dövlət bu standartları ratifikasiya etməklə və ya sənədə qoşulmaqla onların qəbuluna sadiqliyini bəyan edir. Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasına əsasən, dövlətlər qeyd-şərtlər və ya bəyannamələr verməkdə sərbəstdirlər və bununla da sənəd üzrə müəyyən öhdəliklərdən azad olurlar. Azərbaycan bu mexanizmlərdən insan hüquqlarının müdafiəsində fəal şəkilə istifadə edir. Amma ən əsası ölkəmizdə insan hüquqları milli səviyyədə qanunları əhatə edir. Məcburi sənədlərdən fərqli olaraq, qeyri-məcburi olanlar, əsasən, dövlətlərin sadəcə bəyannamələri və ya siyasi razılaşmalarıdır. Belə sənədlərə əsasən, müəyyən hüquqların təmin edilməsi üçün hər cür səy göstərilməlidir, lakin heç bir hüquqi öhdəlik xarakteri daşımır. Azərbaycan bu qəbildən olan səylərə də qoşulan, onların tətbiqi istiqamətində fəal iş aparan ölkələr sırasındadır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**